# Heydər Əliyevin Məhəmməd Füzuli sevgisi

**Ataəmi Mirzəyev**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ataemi@rambler.ru

**Annotasiya.** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatının öyrənilməsi, təbliği, tanınması sahəsində əvəzsiz xidmətləri vardır. Bu görkəmli şəxsiyyətin hakimiyyəti illərində görülən işlər, demək olar ki, çoxəsrlik ədəbiyyat tariximizin bütün mərhələlərini əhatə edir. Kalssik və çağdaş ədəbi şəxsiyyətlərin ədəbi irsi daim Heydər Əliyevin diqqət mərkəzində olmuş, həmin irsin öyrənilməsi və ayrı-ayrı şəxsiyyətlərin yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalanmışdır. Ulu öndər mədəniyyət və incəsənətin bütün sahələrini əhatə edən yubiley və tədbirlərin keçirilməsində şəxsən iştirak etmiş, geniş və məzmunlu çıxışları ilə onların tarixi rolunu və əhəmiyyətini yüksək qiymətləndirmişdir. Bu məqalədə Heydər Əliyevin Məhəmməd Füzuli (1494-1556) irsinə sonsuz diqqət və qayğısı, verdiyi yüksək qiymət, sənətkarın ədəbi irsinin öyrənilməsi və təbliği ilə bağlı yorulmaq bilmədən apardığı fəaliyyət nəzərdən keçirilir. Heydər Əliyevin Füzulinin məzarının bərpası ilə bağlı apardığı çoxillik mücadilə, dahi şəxsiyyətin anadan olmasının 500 illik yubileyinin keçirilməsinin təşkili, həmin ərəfədə Füzuli irsinin nəşri, təbliği və adının əbədiləşdirilməsi sahəsində görülən işlər ədəbiyyatımıza olan sonsuz sevgi, milli-mənəvi dəyərlərimizə olan sayğı və məhəbbətin bariz nümunəsi kimi diqqəti cəlb edir.
**Açar sözlər:** Heydər Əliyev, Məhəmməd Füzuli, Kərbəla, “Füzuli ensiklopediyası”, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

**Məqalə tarixçəsi:** göndərilib – 01.11.2023; qəbul edilib – 07.11.2023

# Heydar Aliyev’s love for the poetry of Mahammad Fuzuli

**Ataami Mirzayev**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi ANAS
E-mail: ataemi@rambler.ru

**Abstract.** The national leader of the Azerbaijani people, Heydar Aliyev, has invaluable services in the study and promotion of the history, culture and literature of Azerbaijan. The work carried out during the years of this outstanding personality at the head of the republic, covers all stages of the history of our centuries-old literature. The study of the literary heritage of classics and modern masters has always been the focus of Heydar Aliyev, who issued decrees on holding their anniversaries. The great leader personally participated in events and anniversaries related to all spheres of art, and in extensive and meaningful speeches highly appreciated their role and significance in history.
This article highlights Heydar Aliyev’s close attention and endless care for the highly valued legacy of Mahammed Fuzuli (1494–1556), tireless activities related to the study of his literary heritage. Attention was drawn to the long-term struggle carried out by Heydar Aliyev for the restoration of the mausoleum of Mahammed Fizuli, the organization of an anniversary event dedicated to the 500th anniversary of the genius personality, timed to coincide with the publication, popularization of Fuzuli’s heritage, and perpetuation of his name, which serves as a vivid example testifying to the endless love for our literature, concern for our national and moral values.

**Keywords:** Heydar Aliyev, Mahammed Fuzuli, Karbala, "Encyclopedia of Fuzuli", Institute of Manuscripts named after Mahammed Fuzuli

**Article history:** received – 01.11.2023; accepted − 07.11.2023

## Giriş / *Introduction*

Görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətdə olduğu 1969-2003-cü illərdə Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı ilə bağlı keçirilən qurultay, konfrans, məclis və görüşlərdəki nitq, məruzə, çıxış, müsahibə və söhbətləri özündə ehtiva edən "Müdriklik mücəssəməsi" adlı kitabın mündəricatına nəzər saldıqda Ulu öndərin bu sahədə göstərdiyi fəaliyyət tam aydınlığı ilə göz önündə canlanır. "Kitabi-Dədə Qorqud" eposundan tutmuş ədəbiyyat tariximizin bütün mərhələlərini əhatə edən ədəbi hadisə, klassik və müasir ədəbi şəxsiyyətlərin ədəbi irsi, yubileyi ilə bağlı keçirilən tədbirlərdəki məruzə və nitqləri, bir çox çağdaş xalq şairi və yazıçılara, qurultay və mərasim iştirakçılarına göndərilən təbrik məktubları Heydər Əliyevin Azərbaycan mədəniyyəti, incəsənəti və ədəbiyyatına olan xüsusi diqqət, qayğı və himayəsinin parlaq təzahürüdür. Ümummilli liderin ədəbiyyat sahəsində gördüyü işlər müxtəlif baxımlardan tədqiqat obyektinə çevrilmiş, haqqında kitablar yazılmışdır [4; 6]. Ancaq bununla belə diqqətdən kənarda qalan, qeyd edilməsi lazım olan məqamlar da vardır.

## Əsas hissə / *Main part*

Qeyd edildiyi kimi, Heydər Əliyevin Azərbaycan ədəbiyyatı sahəsində yorulmaq bilmədən fəaliyyətində XVI əsr şairi Məhəmməd Füzuli irsi xüsusi yer tutur. Füzulinin məzarı, onun başqa yerə köçürülməsi ilə bağlı narahatlıq, bu yolda ardıcıl və sistemli şəkildə aparılan fəaliyyət, dahi şairin ədəbi irsinin öyrənilməsi, 500 illik yubileyinin keçirilməsi, əsərlərinin nəşri, dünyada təbliği və adının ədəbiləşdirilməsi Ulu öndərin bu sahədə gördüyü işləri çevrələyir.

Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ilin əvvəllərində Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsi münasibətilə ədəbiyyat və mədəniyyət sahələrinin görkəmli mütəxəssilərindən ibarət yubiley komissiyası yaradılmışdır. 1 avqust 1994-cü il tarixində keçirilmiş Dövlət Komissiyasının iclasındakı çıxışından məlum olur ki, Ulu öndərin Füzuliyə olan sevgisi hələ orta məktəbdə oxuduğu illərdən başlamışdır: "Gənclikdə rəssamlığa böyük həvəsim var idi. Mənim çəkdiyim ilk rəsmlərdən biri Füzulinin portreti olmuşdur. Təxminən 1936-1937-ci illərdə məktəbimizdə şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil etmişdilər. O vaxtlar belə şeylərə çox fikir verirdilər. Mənim çəkdiyim portret müsabiqədə birinci yer tutmuşdu... Bununla demək istəyirəm ki, Füzuli Azərbaycanda təkcə bu gün deyil, 50-60 il bundan əvvəl də təbliğ olunurdu" [5, s. 152]. Füzuli irsinə, Füzuli sənətinə olan sevgi və məhəbbət Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərində onu düşündürmüş, bu sahədə tarixi işlər görülmüşdür.

Heydər Əliyevi düşündürən, uzun illər bu sahədə əməli addımlar atmaqda israrlı olduğu ən mühüm məqamlardan biri Məhəmməd Füzulinin qəbri və məqbərəsi ilə bağlıdır. 1970-ci illərdən Kərbəlada Füzuli məqbərəsinin tikilməsi ilə bağlı aparılan danışıqlar və yazışmalar nəticə verməsə də, Ulu öndər bu sahədəki fəaliyyətini inadla davam etdirmişdir: "Heydər Əliyevin təklifi ilə füzulişünasların beynəlxalq simpoziumlarının keçirilməsinə təşəbbüs edildi və buna uğurla nail olundu. Bu isə məsələnin unudulmadığını, Azərbaycan tərəfini daim narahat etdiyini göstərirdi. Heydər Əliyev İraqdan SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətləri qarşısında həmin məsələni cəsarətlə qaldıraraq həllinə çalışırdı" [1, s. 4]. Kərbəla şəhərinin baş planına əsasən yolların genişləndirilməsi ilə əlaqədar olaraq Füzulinin qəbrinin sökülməsi, sümüklərinin bir qutuya yığılıb saxlanılması haqqında yayılan məlumatlar Heydər Əliyevi narahat edirdi. Təsadüfi deyil ki, o, 1981-ci ildə keçirilən Yazıçılar İttifaqının qurultayında müəyyən nüfuz, vəzifə sahibi olan şair və yazıçılarımızı belə məsələrdə mübariz, fədakar və prinsipial olmağa səsləyirdi.

Çoxsaylı müraciətlərə cavab olaraq Bağdadın hakim dairələrindən İraq-İran müharibəsi (1980-1988) qurtarandan sonra Füzuli qəbrinin bərpasının baş tutacağının mümkünlüyü bildirilirdi. Sanki Füzuli belə bir vəziyyəti qabaqcadan hiss edərək yazmışdı:

*Ucaldın qəbrim, ey bidərdlər, səngi-məlamətdən*
*Ki, mə'lum ola dərd əhlinə qəbrim ol əlamətdən...* [3, s.245]

Yorulmaq bilmədən aparılan çətin və gərgin mübarizə öz nəticəsini verdi. Füzulinin qəbri Kərbəlada bərpa olundu. Həmin vaxtlar İraqa gediş-gəliş çətin olduğundan bu barədə ilk məlumatı 1989-cu ildə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətinin sədri, Xalq şairi Nəbi Xəzrinin bir müsahibəsindən alırıq: "Füzulinin yeni məzarını ilk dəfə 2 fevral 1989-cu ildə ziyarət etmişəm. İraqda... SSRİ günləri keçirmək barədə danışıqlar aparmaq üçün Bağdada getmişdik... Yeni türbəyə sənət nümunəsi demək olar. Görülən iş yüksək qiymətə layiqdir. Deyilənə görə, əvvəlkindən də əzəmətlidir. Bir sözlə, özünə yaraşandır" [2, s.4]. Bu məqamda Füzulinin cənazəsinin qalıqlarının Azərbaycana köçürülməsi ilə bağlı fikirlərin yarandığı zaman Heydər Əliyevin məsələyə uzaqgörənliklə yanaşmasını, bu işin müəyyən zaman tələb etməsinin vurğuladığını xatırlatmaq da yerinə düşərdi. Həqiqətən də, zaman öz işini görmüşdü. Lakin sonralar İmam Hüseyn məscidində olan Füzulinin məzarının kitabəsində səbəbi bilinməyən bəzi dəyişikliklər aparılmışdır.

Ümummilli liderin Füzuli sənətinə olan sevgisi şairin 500 illik yubileyi ərəfəsində görülən işlərdə və keçirilən tədbilərdəki fəaliyyəti tam şəkildə özünü göstərir. "Füzuli yubileyini keçirməklə Azərbaycan xalqını dünyaya bir daha tanıtmalıyıq" devizini əsas tutan Heydər Əliyev Füzulinin 500 illik yubileyinin keçirilməsini böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymət kimi dəyərləndirir. Onun qənaətinə görə, bu, eyni zamanda, həm də mədəniyyətimizi, tariximizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və bundan hərtərəfli istifadə edilməlidir [5, s.149].

Məhəmməd Füzulinin 500 illik yubileyinin UNESCO səviyyəsində keçirilməsi ilə bağlı hazırlıq mərhələsində Heydər Əliyevin Dövlət Komissiyasının iclasındakı çıxışı bütünlükdə həmin tədbirlərin keçirilməsinin əsas konturlarını özündə ehtiva edir. Buraya həm Füzuli əsərlərinin yenidən nəşri və təbliği, həm şairin ədəbi irsinin yenidən öyrənilməsi istiqamətləri, həm də Füzulinin dünyada tanıdılması ilə bağlı görüləcək işlərin vacibliyi haqqında olan fikirlər daxildir. Ulu öndər Füzulinin ölkəmizdə, xüsusən xaricdə yaxından tanınması üçün onun haqqında populyar bir kitabın yazılmasını və həmin kitabın həm Avropa, həm də Şərq dillərinə tərcümə edilərək yayılmasını aktual hesab edir. Eləcə də Füzulinin yubileynin xarici ölkələrdə – Türkiyədə, İranda, Orta Asiya dövlətlərində, Tatarıstanda, Başqırdıstanda, Rusiyanın Moskva və Sankt-Peterburq şəhərllərində keçirilməsini vacib sayır. Heydər Əliyev Füzulinin 500 illik yubileyi ilə bağlı 1994-cü il noyabrın 1-də Türkiyənin Bilkənd Universitetindəki, 2 noyabrda isə Türkiyə Böyük Millət Məclisindəki çıxışında Türkiyə – Azərbaycan dostluğu yüksək dəyərləndirmiş, Füzulinin bütün türkləri birləşdirən bir şəxsiyyət olduğunu vurğulamışdır [5, s.168]. Ulu öndərin 1994-cü il 17 noyabrda Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən yubiley tədbirindəki çıxışı da özünün dərin məzmunu ilə seçilir və yadda qalır.

Ümummilli lider Heydər Əliyev 1996-cı il 23 iyulda Məhəmməd Füzulinin yubileyi üzrə Dovlət komissiyasının iclasındakı çıxışında komissiya üzvlərinin diqqətini son mərasimlərin keçirilməsi ilə əlaqədar hazırlanacaq suvenir, nişan, sikkə və medallar, eləcə də Füzuli adına Beynəlxalq mükafatın təsis edilməsi haqqında məsələlərə çəkir, "Füzuli ensiklopediyası"nın hazırlanmasının vacibliyini qeyd edir. Ulu öndərin Məhəmməd Füzulinin adının əbədiləşdirilməsi ilə bağlı Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adının verilməsi fikrinə tərəfdar olması tarixi bir xidmətdir. Onun "Bizdə Azərbaycan dilçilik institutu, Azərbaycan ədəbiyyatı institutu var. Bunlar xalqımızın, Azərbaycanın bir millət kimi, demək olar ki, pasportudur. Bunu edənlər çox yaxşı, gözəl ediblər. Ədəbiyyat İnstitutuna Nizaminin, Dilçilik İnstitutuna Nəsiminin adı verilibdir. Bu, həddən artıq yaxşı bir haldır" [5, s.244] sözləri Azərbaycan elminə verilən yüksək qiymətdir.

Heydər Əliyevin 1996-cı il 8 noyabrda Məhəmməd Füzulinin 500 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsindəki nitqi ümumilikdə üç il ərzində görülən işlərin, keçirilən tədbirlərin, klassik irsə, Füzuli yaradıcılığına verilən böyük dəyərin yekunu kimi özünü göstərir: "Məhəmməd Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmışdır. Bu abidə 500 ildir ki, insanların qəlbində yaşayır. O, Azərbaycan Respublikasının hər bir vətəndaşının qəlbindədir. Bu, mənəvi abidədir. Bu abidə bütün fırtınalardan, küləklərdən, zəlzələlərdən, döyüşlərdən keçərək yaşayır, günü-gündən yüksələrək zirvələri fəth edir" [5, s.262]. Füzuli yaradıcılığının əhəmiyyətini yüksək dəyərləndirən Ulu öndər öz nitqini belə tamamlayır: "Eşq olsun şeirə, eşq olsun Füzuliyə, eşq olsun Füzuli yaradıcılığına! Yaşasın elm, mədəniyyət, yaşasın şeir! Yaşasın Azərbaycan Respublikası!" [5, s.267]

**Nəticə / *Conclusion***

Beləliklə, aydın olur ki, XVI əsr böyük Azərbaycan şairi Məhəmməd Füzulinin həyatı, zəngin ədəbi irsi, geniş və çoxşaxəli yaradıcılığı ümummilli lider Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuş, onu layiqincə dəyərləndirmişdir. Görkəmli dövlət xadiminin Füzuli sənətinə olan sevgi və məhəbbəti gənclik yaşlarından başlayaraq ömrünün sonuna kimi davam etmişdir. Əsası Heydər Əliyev tərəfindən qoyulan görkəmli ədəbi şəxsiyyətlərin yubileylərinin geniş miqyasda keçirilməsi ilə bağlı ənənənin formalaşması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də layiqincə davam etdirilir. Bu baxımdan 2019-cu ilin "İmaməddin Nəsimi İli", 2021-ci ilin "Nizami Gəncəvi İli" kimi elan edilməsi olduqca tarixi və yaddaqalan hadisələrdir. Ümid edirik ki, 2024-cü il də "Məhəmməd Füzuli İli" kimi tarixə düşəcək. Bu isə Ulu öndərin Məhəmməd Füzulinin 500 illik yubileyində görülən işlərin davamı kimi Azərbaycan ədəbiyyatının dünyada tanınması sahəsində yeni əsaslı bir addım olacaqdır.

**Ədəbiyyat / *References***


1. Akimova, E. Heydər Əliyevin Füzuli mücadiləsi – "Sorun kim, bu nə sevdadır..." // "Ədəbiyyat qəzeti", 4 iyun, 2023-cü il.
2. Ələkbərzadə, Ş. Oyadır xəlqi əfqanın... və ya Füzulinin məzarının bərpası haqqında həqiqət // "Kommunist" qəzeti, 3 noyabr, 1989-cu il.
3. Füzuli M. Əsərləri. Altı cilddə. I cild (Tərtib edəni: H.Araslı). – Bakı: Şərq–Qərb, 2005.
4. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. – Bakı: Şərq–Qərb, 2009.
5. Heydər Əliyev. Müdriklik mücəssəməsi (Məruzələr, çıxışlar, görüşlər, müsahibəllər) – Bakı: Elm, 2023.
6. Kərimli, T. Heydər Əliyev və klassik irs. – Bakı: Elm və təhsil, 2023.


## Гейдар Алиев и его увлечённость поэзией Мохаммеда Физули


**Атами Мирзоев**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ataemi@rambler.ru



**Резюме.** Общенациональному лидеру азербайджанского народа Гейдару Алиеву принадлежат неоценимые заслуги в деле изучения и пропаганды истории, культуры и литературы Азербайджана. Проведённая работа в годы пребывания этой выдающейся личности во главе республики, можно сказать, охватывает все этапы истории нашей

многовековой литературы. Изучение литературного наследия классиков и современных мастеров пера всегда было в центре внимания Гейдара Алиева, издававшего указы о проведении их юбилеев. Великий лидер лично участвовал в проводившихся мероприятиях и юбилеях, связанных со всеми сферами искусства, в обширных и содержательных выступлениях высоко оценивал их роль и значимость в истории.

В данной статье освещается пристальное внимание Гейдара Алиева и бесконечная забота о высоко оценённом им наследии Мохаммеда Физули (1494–1556), неустанная деятельность, связанная с изучением и распространением его литературного наследия. Привлечено внимание к проводимой Гейдаром Алиевым многолетней борьбе за реставрацию мавзолея Мохаммеда Физули, организации юбилейного мероприятия, посвящённого 500-летию гениальной личности, приурочив к нему публикацию, популяризацию наследия Физули, и увековечивание его имени, что служит ярким примером, свидетельствующим о бесконечной любви к нашей литературе, заботе о наших национально-нравственных ценностях.

**Ключевые слова:** Гейдар Алиев, Мохаммед Физули, Кербела, «Энциклопедия Физули», Институт рукописей имени Мохаммеда Физули